*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin* **ELMİ ƏSƏRLƏRİ № 27, 2019**
**УЧЁНЫЕ ЗАПИСКИ***Азербайджанского Государственного Университета Культуры и Искусств* **№ 27, 2019**
**SCIENTIFIC NEWS** ***of Azerbaijan State University of Art and Culture*** **№ 27, 2019**

**UOT 73**

**Gülər Məmmədova**
**Azərbaycan Dövlət Rəssamlıq**
**Akademiyasının dissertantı**
**AZ1029, Bakı, H.Əliyev pr. 26**
**E-mail:**Ressam-memar@mail.ru

# HEYKƏLTƏRAŞLIQ ABİDƏLƏRİ - ŞƏHƏRLƏRİN GÖRKƏMİNİN BƏDİİ FORMALAŞDIRMA VASİTƏSİ KİMİ

**Xülasə**: Məqalə müasir Azərbaycan incəsənətinin aktual problemlərindən biri olan heykəltəraşlıq abidələrinin şəhərlərin bədii tutumundakı mövqeyi öyrənilir. Məqalə Bakı şəhərinin timsalında heykəllərin şəhərin estetikasında olan rolunu, həmçinin şəhərin bədii tutumuna vurduğu ziyan məsələləri araşdırılır. Müəllif əsasən, Bakı şəhərindəki "Azadlıq" abidəsi, "Xurşidbanu Natəvan" heykəli, "Mikayıl Müşfiq" abidəsi, "Üzeyir Hacibəyov" abidəsi, "Səməd Vurğun" heykəli, "Bəhram Gurun" abidəsi və s. nümunələr üzərində dayanır. Bu abidələrin şəhərin müxtəlif yerlərində ucaldılarkən nəzər alınacaq nüanslar – abidənin miqyası, yerləşəcəyi məkanın özünəmsusluqları, bu iki nüansın bir-biri ilə sıx əlaqəsi də məqalənin tədqiqat obyektinə daxil edilmişdir.

**Açar sözlər:** Heykəl, memarlıq, şəhər, monument, plastika

Sonradan inşa olunan tikililərin heykəltəraşlıq abidələrinin bədii tutumuna ziyan vurmasının daha bir təzahürünü Bakı şəhərindəki "Azadlıq" (1960) abidəsinin timsalında da izləmək mümkündür. Qeyd etmək lazımdır ki, zamanında abidənin yaradıcıları onun miqyasını təyin edəndə ilk növbədə onun yerləşəcəyi məkanın necəliyini nəzərə almışdılar. Başqa sözlə desək, Füzuli meydanı tərəfdən abidəyə baxanda onun kifayət qədər hündür olan görkəmi arxasındakı ikimərtəbəli yaşayış binası ilə müqayisədə çox möhtəşəm baxılırdı. Bu baxımdan onun müəyyən qədər S.M.Kirovun abidəsi ilə anım yaratdığını da söyləmək mümkündür. Lakin abidənin açılışından yeddi il sonra onun arxasındakı binanın sökülməsi və "Azərsənayetikinti" nazirliyi üçün (indi orada Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yerləşir) 17 mərtəbəli inzibati binanın inşası ilə abidənin daşıdığı möhtəşəmliyə son qoyuldu. Belə ki, baş verənlərdən sonra ümumi hündürlüyü yaşayış binasından çox-çox yuxarılara qalxan və açıq səma fonunda kifayət qədər əzəmətli və ifadəli görünən abidə duyulası dərəcədə "cılızlaşdı" və göydələnin qurbanına çevrildi. Sonradan həmin binanın fasadında müəyyən dəyişikliklər aparılsa da, məkanın qürurverici dominantına çevrilmiş "Azadlıq" bədii azadlıq qazana bilmədi. Abidənin yaranma tarixinə aydınlıq gətirməli olsaq, onda onun öncə dəzgah variantının əllinci illərin sonunda respublika sərgisində nümayiş etdirildiyini və dövlət orqanları tərəfindən ictimailəşdirilməsinin tövsiyə olunduğunu deməliyik. Bundan sonra müəllif bu eskiz üzərində bir qədər də işləmiş, son nəticədə, fiqurun baxımlı bədii tutum almasına nail olmuşdur. Doğrudan da milli geyimli fiqurun ekspressiv-romantik tutumunda yeni-yeni arzularla yaşayan azərbaycanlı qadının (əsərin digər bir adı da "Azad Azərbaycan qadını"dır) cəlbedici obrazını görmək mümkündür. Bu da bir çoxlarının dediyinin əksinə olaraq əsərin ideoloji asılılıqdan çıxarmaqla

ümumiləşdirilmiş-rəmzi məna-məzmun daşıyıcısına çevrilməsini şərtləndirmişdir. Onun bu gün şəhər mühitinin bədii formalaşmasında rolunun əvvəlki illərə nisbətən azalması da ilk növbədə onun yaradıcılarının yox, həm sovet, həm də müstəqillik illərində paytaxtdakı şəhərsalma prinsiplərini xaotik şəkildə həyata keçirən təşkilatların əməlrinin nəticəsidir.

İndiki Bakı Musiqi Akademiyasının 1935-ci ildə ucaldılan binası (memarı M.Hüseynov və S.Dadaşov) da XX əsrdə eksteryerində milli elementlərin uğurlu istifadəsinə görə diqqətçəkən tikililərdən saymaq mümkündür. Odur ki, onun qarşısında müasir-milli Azərbaycan musiqisinin inkişafında ölçüyəgəlməz xidmətləri olan Üzeyir Hacıbəylinin abidəsinin qoyulması çox məntiqli idi. Abidə müəlliflərin (heykəltəraş T.Məmmədov, memar H.Muxtarov) özündə ənənəvi Azərbaycan memarlığının ruhunu yaşadan tikilinin qarşısındakı abidəni klassik ruhda həll etməyə üstünlük vermələri də yəqin ki, uğurlu tapıntı kimi dəyərləndirilməlidir.

M.F.Axundzadənin (1930) və M.Ə.Sabirin (1958) abidələrindən sonra 1960-cı ildə paytaxtı bəzəyən daha iki heykəldə (Ü.Hacıbəyli və X.B.Natəvan) tanınmış şəxsiyyətlərin oturmuş vəziyyətdə görüntüyə gətirilmələri göstərirdi ki, bu poza müasir Azərbaycan plastika sənətində ənənə şəklini almaqla yanaşı, həm də həmin tanınmışların obrazının inandırıcılığının əldə olunmasında məntiqli bədii formaya çevrildiyini göstərir. Bu mənada T.Məmmədovun ərsəyə gətirdiyi abidədə də dahi bəstəkarın varlığına xas olan müsbət keyfiyyətləri görmək mümkündür. Heç şübhəsiz alınan uğurlu nəticə müəllifin bu prosesdə davamlı axtarışlar aparmasının nəticəsidir. Belə ki. hələ 1957-ci ildə bəstəkarın çox ifadəli portretini yaradan T.Məmmədov, abidə üzərində çalışarkən onun cizgilərindən istifadə etmişdir. Odur ki, kresloda əyləşərək düşüncələrə qərq olmuş Üzeyir bəyin fiquru gerçəkçi-realist plastikanın sayəsində ümumi tutumun ifadəli siluet və bədii ümumiləşdirilmiş görkəm alması ilə diqqət çəkir. Çəhrayı qranit kürsü ilə tunc fiqurun uğurlu mütənasibliyi ümumi hündürlüyü altı metrə çatan (fiqurun hündürlüyü 2,9 m) tunc abidənin monumentallığını şərtləndirmişdir. Memarın abidənin ucaldıldığı meydançaya küçədən girişdə və akademiyaya tərəf çıxışda iki geniş daş pilləkən yaratması da məqsədli olub, əsərə müxtəlif istiqamətlərdən tamaşa etmək imkanı vermişdir. Əlavə edək ki, abidənin yerləşdiyi meydança, ona birləşən ərazi musiqi ruhu hakim olan məkanda müxtəlif tədbirlər keçirməyə, konsertlərdə isə orkestr meydançası kimi istifadə etməyə imkan vermişdir. Başqa sözlə desək, Ü.Hacıbəylinin paytaxtın gur guşələrindən birində, üç küçə ilə əhatələnmiş sahədə bədii mühit formalaşdıran tunc abidə şəhərin memarlıq aurasına yeni çalarlar əlavə etmişdir... Elə həmin 1960-cı ildə Bakıda ucaldılan şairə Xurşudbanu Natəvanın abidəsinin müəllifləri olan heykəltəraş Ö.Eldarov və memar F.Leontyeva "Ü.Hacıbəylinin abidəsi"nin müəllifləri ilə müqayisədə çətin vəziyyətə düşmüşdülər. Belə ki, yaradılması yuxarı təşkilatların rəsmi icazəsi olmadan həyata keçirilən abidənin onun üçün o qədər də münasib olmayan məkanda heç şübhəsiz, onun arzulanan bədii-mənəvi aura yarada bilməsinə duyulası təsiri olmuşdur. Heykəlin yaranması tarixçəsi barədə sənətşünas Z.Əliyevin tədqiqatında oxuyuruq: "Demək lazımdır ki, abidənin yaranmasını şərtləndirən səbəblərdən biriheykəltəraşın 1955-ci ildə ərsəyə gətirdiyi "Xurşudbanu Natəvan" portretinin sərgidə görkəmli yazıçı Mirzə İbrahimov tərəfindən təqdiri olmuşdur. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri vəzifəsində çalışan (1954-1958)Mirzə İbrahimov əsəri sərgidə görəndən sonra çox təsirlənmiş və özünə "Nə üçün Bakıda Natəvanın abidəsi olmasın?" sualını verəndən sonra, bu işin icrasını gənc heykətəraşa həvalə etmişdir. Paytaxtdakı abidənin ucaldılması haqqında hökumət qərarının gərəkliliyinə baxmayaraq, Ömər Eldarov hökumətdə yüksək vəzifə tutan Mirzə İbrahimovun təkcə sözü ilə bu işə başlayır. Abidə yerinə qoyulduqdan sonra, onun açılışının vaxtı barəsində Mərkəzi Komitəyə məlumat verilir. Bu gözlənilməz xəbər orada çox pis qarşılanır və cavab gəlir ki, Natəvanın Bakıda heykəlinin ucaldılması barəsində heç bir hökumət qərarı yoxdur və ona görə də abidə sökülməlidir. 1960-cı ildə M.İbrahimov

artıq zamanında daşıdığ yüksək vəzifədə olmasa da, vaxtilə qazandığı nüfuz sayəsində abidəni xilas edir və onun açılışı baş tutur...”

Abidənin bədii-estetik və fəza-məkan xüsusiyyətlərini dəyərləndirməli olsaq, onda qeyd etməliyik ki, taleyi təzadlarla dolu olan şairənin lirik-psixoloji həll olunmuş abidəsi yerləşdiyi yerin aurası ilə uyuşmur. Odur ki, paytaxtın ən izdihamlı guşələrindən birində - iki küçənin kəsişməsindən yaranan kiçik meydanda qərarlaşan, kino-teatr, mağaza və yaşayış evi ilə əhatələnmiş tunc abidənin aşıldığı poetik duyğuları duymaq elə də asan deyildir. Arxası günçıxana olan abidənin günün əksər vaxtında çöhrəsinin kölgəli qalması da əsərdən alınan zövqün dərəcəsini xeyli azaldır. Yeri gəlmişkən deyək ki, məhz bu xüsusiyyət təkcə X.Natəvanının abidəsini səciyyələndirmir. Belə ki, M.Ə.Sabir və Ü.Hacıbəylinin abidələri də oxşar yerləşməyə malikdirlər. Qənaətimizcə, X.Natəvanın tunc abidəsi yaşıllıqla əhatəli, parkda və yaxud bağçada ucaldılsaydı, onun aşıladığı bədii-estetik dəyər daha güclü olardı. Bununla belə, “Xan qızı”nın tunc abidəsi haqlı olaraq Azərbaycan heykəltəraşlığının incilərindən sayılmaqdadır. Əllinci illər heykəltəraşlığını yaratdıqları Ü.Hacıbəyli və X.Natəvanın abidələri ilə xeyli zənginləşdirən T.Məmmədov və Ö.Eldarov az sonra yaradıcı qüvvələlərini bir araya gətirməklə, 1962-ci ildə Azərbaycan plastika sənətinin ən uğurlu əsərlərindən birini – görkəmli söz xiridarı Məhəmməd Füzulinin heykəlini yaratdılar. Qeyd etmək lazımdır ki, onlar artıq 1957-ci ildə Sumqayıt şəhəri üçün V.İ.Leninin abidəsini işləməklə, birgə əməkdaşlıqlarının əsasını qoymuşdular. Odur ki, onların M.Füzulinin vəfatının 400 illiyi münasibətilə keçirilən müsabiqədə birgə layihə təqdim etmələri gözlənilməz deyildi. Onların müsabiqənin birinci mükafatına layiq görülən əsərləri doğrudan da kifayət qədər orijinal bədii tutuma malik idi. Paytaxtın gözəgəlimli və izdihamlı guşələrindən sayılan məşhur “Beşmərtəbə”nin lap yaxınlığında, 1960-ci ildə inşa olunmuş “Azdrama”nın (memarı Q.Əlizadə və M.Mədətov) qarşısında ucaldılacaq abidənin (memarı H.Muxtarov) həm tunc fiquru, həm də qorelyefli kürsüsü cəlbedici və yaddaqalan bu vaxta qədər Azərbaycan heykəltəraşlığında oxşarı olmayan bədii tutuma malik idi. Ümumi hündürlüyü 11 metrə çatan (fiqurun hündürlüyü 5,5 metr) abidənin həmişə qələbəlik duyulan bu Teatr meydanına duyğulandırıcı ovqat bəxş etməsi adi gözlə belə görünəndir. Bunu şərtləndirən başlıca səbəb müəlliflərin həm fiqur, həm də onun kürsüsü üçün özünəməxsus bədii həll tapmalrıdır. Sol əli kitablı, sağ əli düşüncəli çöhrəsinə söykənmiş vəziyyətdə - ayaq üstə dayanmış “dərd şairi”nin ifadəli duruşunda onun yaşantılarının təsirli plastik ifadəsini görmək mümkündür. Abidənin şairin nakam məhəbbət dastanının qəhrəmanları – Leyli və Məcnunun qayanı andıran qranitdən yonulmuş qorelyeflərindən ibarət olan kürsü forma-biçiminə görə bənzərsiz olmaqla, çox təsirli və yaddaqalandırlar. Zamanında abidənin ətəyindəki zolaqşəkilli çarhovuzda əksinin əsərdən alınan təəssüratı daha da gücləndirdiyi də görünən idi (ərazidə aparılan son “abadlıq” işlərindən sonra həmin su hövzəsi ləğv edilib). Açılışından bir il sonra – 1963-cü ildə abidənin SSRİ Rəssamlıq Akademiyasının gümüş medalına layiq görülməsi əsərin professionallr tərəfindən yüksək dəyərləndirmənin ifadəsi olmaqla, həm də müasir Azərbaycan plastik sənətinin yüksəlişdə olduğunu təsdiqləyən bədii hadisə idi.

Heykəllərin paytaxt memarlığına təsirini şərtləndirən bədii hadisələr təkcə yuxarıda adlarını çəkdiyimiz plastika nümunələri ilə məhdudlaşmır. Belə ki, heykələrin şəhərə çıxışı bunun daha geniş şəkil aldığı əllinci illərin sonu-altmışıncı illərdə həm də Bakıda “S.Vurğunun abidəsi”, “Bəhram Gurun abidəsi” və “Şair Mikayıl Müşfiqin abidəsi”nin paytaxtın müxtəlif guşələrində ucaldılması ilə davam etdirilir. Bu abidələrin ictimailəşdirildiyi zamandan keçən duyulası zaman kəsiyindən sonra da əvvəlki dəyərli estetik tutumunu qoruyub saxlaması ilk növbədə onların yaradıcıları olan F.Əbdürrəhmanov, Q.Sücəddinov, A.Mustafayev, A.Rüstəmov və M.Rzayeva kimi tişə ustalarının ərsəyə gətirdikləri heykəllərin şəhər memarlığına müsbət təsir göstərməkdə davam etmələrinin

nəticəsidir. Əllinci illərin sonunda – 1959-cu ildə indiki Funuklyorun (o vaxt funiklyor tikilməkdə idi) qarşısındakı meydanda, "Alimlər evi"nin qarşısında paytaxt ictimaiyyəti tərəfindən maraqla qarşılanan bir abidənin açılışı oldu. Abidənin marağa səbəb olmasının kökündə yəqin ki, onun həm də fontan-heykəl kimi həll olunması dururdu. Məlumat üçün bildirək ki, o vaxtlar Bakı şəhərinin rəhbərliyi şəhər tərtibatının yaxşılaşdırılması üçün heykəltəraşlar arasında müsabiqə təşkil etmişdi. Heç kimin gözləmədiyi halda üç gənc heykəltəraşın təqdim etdiyi layihə şəhər rəhbərliyini razı salır. Bu heykəl Nizami Gəncəvinin "Yeddi gözəl" poemasının qəhrəmanlarından birinə həsr olunmaqla, ədəbi obraza ucaldılan ilk plastika nümunəsidir. Ümumi hündürlüyü 3,5 metr olan kompozisyada Sasanilər sülaləsinin beşinci hökmdarı Bəhram Gurun ilanabənzər əjdaha ilə mübarizəsi təsvir olunub. Müəlliflərin öz qəhrəmanlarını əcaib məxluqatı belindən sıyırdığı qılıncla öldürməsi anında təsvirə gətirməklə, ümumi kompozisiyaya duyulası dinamizm bəxş etmələri duyulandır. Dairəvi çarhovuzun mərkəzini tutan kompozisiyada əjdahanın ağzından yüksələn su şırnağının yaratdığı cəlbedici gözəlliyin gözoxşayan olması da danılmazdır. 1959-cu ildə ucaldılan və 2007-ci qismən bərpa olunan heykəlin ətrafında uzun illər ərzində qələbəliyin müşahidə olunması, buranın paytaxtın sakinlərinin və qonaqlarının tez-tez ziyarət etdikləri guşəyə çevrilməsi də göstərir ki, tunclaşmış Bəhram Gur hələ də paytaxtın memarlıq aurasına özünəməxsus estetik dəyərlər bəxş eməkdəir...

Görkəmli tişə ustası F.Əbdürrəhmanovun müəllifliyi ilə ərsəyə gətirilən Xalq şairi Səməd Vurğunun abidəsi həm də bir xüsusiyyətinə görə paytaxtımızı bəzəyən heykəllərdən fərqlənir. Bu da həmin abidənin şairin vəfatından (1956) cəmisi beş il sonra ucaldılmasıdır. Heç şübhəsiz, bu "tələskənliyin" kökündə görkəmli şairin sağlığında el məhəbbəti qazanması, şeirlərinin dillər əzbəri olması durur, desək, həqiqəti söyləmiş olarıq. Açılışı 1961-ci ildə baş tutan bu abidədə(memarı M.Hüseynov) S.Vurğun ayaq üstə, cəlbedici bir görkəmdə görüntüyə gətirilib. Sənətşünas Z.Əliyevin təbirincə desək, "El bilir ki, sən mənimsən..." deyən və bütün varlığı ilə Azərbaycana bağlı ola Səməd Vurğunun dairəvi qranit kürsü üzərindəki fiqurunun inamlı duruşunda, əllərinin hərəkətində vurğuladığımız romantik ruhu duymaq mümkündür. Sinəyə sıxılan sol, havada ifadəli siluet alan sağ əlin hərəkətində, plaşın sərbəst görkəm almış tutumunda doğma yurda sonsuz məhəbbət bəsləyən şairin yenə də onu duyğulandıran misralarla baş-başa qaldığını nümayiş etdirir." Müəlliflər paytaxtın qədim bağlarından sayılan (buranı 1882-ci ildə dəmir məmulatı taciri Krasilnikov saldırmışdı) məkanın özəlliyini incəliklə duymaqla, yaşıllıqla əhatə olunmuş məkanda qürurverici abidənin yaradılmasına nail olmuşlar. Heç şübhəsiz, bu önəmli dəyərin mayasında ümumi hündürlüyü 9 metrə çatan (fiqurun hündürlüyü 3,5 metrdir) abidənin dairəvi qranit kürsü ilə üzvi əlaqəsi, tunc fiqurun romantik tutumu durur. Odur ki, bol yaşıllığı olan, çarhovuzlu bu məkan çoxdandır ki, şəhər sakinlərinin və qonaqlarının sevimli istirahət guşəsinə çevrilmişdir. 1968-ci ildə açılışı baş tutan şair Mikayıl Müşfiqin abidəsi zamanında repressiyaya məruz qalmış gənc söz xiridarının anadan olmasının 60 illiyi münasibətilə ucaldılmışdı. Müəllifi Münəvvər Rzayeva olan bu abidənin (memarı Ş.Zeynalova) ümumi hündürlüyü 3,2 metrə çatır. Abidənin əsas məna-məzmun daşıyıcısı olan şairin portretini qırmızı qranitdən yonan tişə ustası, bu "isti"liklə yarımçıq qırılmış ömür yolunu qədirbilən xalqının yaddaşında davam etdirdiyinə işarə kimi düşünülmüşdür. Gənc yaşında ikən Azərbaycan poeziyasında önəmli yer tutmağı bacaran və dillər əzbəri olan "Oxu tar! Səni kim unudar!" sözləri ilə həm də milli ruhunu və qorxmazlığını bədxahlarına çatdıran M.Müşfiqin düşüncəli durumunda tamaşaçısını duyğulandıra biləcək bədii-mənəvi xüsusiyyətlər kifayət qədərdir.

**Ədəbiyyat:**

1. Novruzova C. Fuad Əbdürrəhmanov. Bakı: 2004, s. 86
2. Novruzova C. Heykəltəraşlığımızın bu günü // "Qobustan" 1977, №2, s.5-11

3. Novruzova C. Müasir monumental heykəltəraşlığımızın bəzi məsələləri // "Azərbaycan kommunisti", 1974, №10, s. 83-92.
4. Əliyev Z. Heykəlləri şəhərə kim çıxarmalıdır // "Azadlıq", 2007, 4-5 mart, s. 15
5. Sadıqov S. Tokay Məmmədovun yaradıcılığının bədii xüsusiyyətlərinin Azərbaycan heykəltəraşlığında əhəmiyyəti [Mətn] : sənətşün. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı : Bakı 2013.
6. Sadıqov S. Heykəltəraşlığımızda Füzuli obrazı // "Kredo",2005, 4 iyun, s.4
7. Şahbazov A. Heykəl və Şəhər (Şəhərdə qoyulan və çıxardılan heykəllərin tarixindən) // Panorama, 1997, 21, fevral, səh 4.
8. НоврузоваД.Г. Скульптура Советского Азербайджана. Баку,1979,160 с.

**Гюляр Маммадова**

**Скульптурные памятники – как основной элемент художественного оформления городов**

**Резюме**

В статье рассматривается одна из актуальных проблем современного искусства - место скульптурных памятников в художественном оформлении городов. В статье изучается роль скульптур в эстетике города, а также ущерб, нанесенный ими художественному потенциалу города. Автор, в основном, останавливается на таких образцах, как памятники "Азадлыг", "Хуршидбану Натаван", "Микаил Мушфиг", "Узеир Гаджибеков", "Самад Вургун", "Бахрам Гур" Объектом исследования статьи являются нюансы, которые учитываются при возведении этих памятников в разных частях города - размеры памятника, особенности расположения памятника и тесная связь между этими двумя нюансами.

**Ключевые слова**: скульптура, архитектура, город, памятник, пластика

**Gular Mammadova**

**The sculptural monuments as the means of artistic forming of the city view**

**Summary**

The article discusses one of the pressing problems of modern art - the place of sculptural monuments in the artistic design of cities. The article studies the role of sculptures in the aesthetics of the city, as well as the damage caused by them to the artistic potential of the city. The author mainly dwells on such samples as the monuments "The Independence", "Khurshidbanu Natavan", "Mikail Mushfig", "Uzeyir Hajibeyov", "Samad Vurgun", "Bahram Gur" The object of the article is the nuances that are taken into account when erecting of these monuments in different parts of the city - the size of the monument, the location of the monument and the close relationship between these two nuances.**Key words:** statue, architecture, city, monument, architectural plastic

**Məqalənin redaksiyaya daxil olma tarixi: 03.06.2019**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.06.2019**
**Məqalənin çapa qəbul olunma tarixi: 04.07.2019**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Aslanova**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur**